**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

**№ 27**

**Bakı şəhəri** „16" oktyabr 2023-cü il

**"Azərbaycan Respublikasında istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının tərkibində hər ədəd üçün nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddi"nin təsdiq edilməsi barədə**

"Tütün və tütün məmulatları haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci yarımbəndini və 17-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Azərbaycan Respublikasında istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının tərkibində hər ədəd üçün nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddi" təsdiq edilsin (əlavə olunur).
2. Respublika Gigiyena və Epidemiologiya Mərkəzi publik hüquqi şəxsinin baş direktoru S.Həsənovaya və Respublika Sanitariya-Karantin Mərkəzi publik hüquqi şəxsinin baş direktoru S.Novruziyə tapşırılsın ki, tutun məmulatlarının istehsalı və idxalı zamanı onun tərkibində nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddi üzərində dövlət sanitariya nəzarətinin gücləndirilməsi təmin edilsin.
3. Kollegiyanın məsul katibi L.Məmmədovaya və Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi publik hüquqi şəxsinin baş direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet saytında yerləşdirilməsi təmin edilsin.
4. Qərarın icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Teymur Musayev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin Kollegiyasının 2023-cü il 16 oktyabr
tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasında istehsal edilən və dövriyyəyə buraxılan tütün məmulatının tərkibində hər ədəd üçün nikotinin, tütün qatranının və karbon monoksidinin miqdarının yuxarı həddi**

| **Tütün tüstüsünün komponenti** | **Yuxarı həddi** | **Müayinə üsulu** |
|---|---|---|
| Nikotin | 1,0 mq/siq | ГОСТ 30570 |
| Tütün qatranı | 10,0 mq/siq | ГОСТ 30571 |
| Karbon monoksid | 10,0 mq/siq | ГОСТ 31630 |